# “Zənn etməkdən çəkinin; çünki zənn, ən yalan ifadədir

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Zənn etməkdən çəkinin; çünki zənn, ən yalan ifadədir. Bir-birinizin gizli işlərini araşdırmayın, qüsurlarını axtarmayın, bir-birinizə paxıllıq etməyin, bir-birinizdən üz çevirməyin, bir-birinizə nifrət etməyin və ey Allahın qulları, qardaş olun!”
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanlar arasında təfriqə və düşmənçiliyə səbəb olan bəzi şeyləri qadağan edir və onlardan çəkindirir. Bunlardan: (Zənn) - o, qəlbdə yer alan dəlil-sübutsuz ittihamdır və onun ən yalan ifadələrdən olduğunu bəyan edir. (Əttəhəssus):Insanların şəxsi həyatlarını baxmaqla və ya dinləməklə araşdırmaq. (Əttəcəssus)- gizli işləri araşdırmaqdır və bu daha çox şərr və pislikləri nəzərdə tutur. (Əl-Həsəd)-başqalarının əldə etdiyi nemətə qərəzli olmaq, nifrət etmək. (Əttədəbur)-Bir-birindən üz çevirmək, bir birinə salam verməmək və ziyarət etməmək. (Əttəbağud)-Nifrət və sevməmək, başqalarına əziyyət vermək, qaşqabaqlı olub, insanları pis qarşılamaq. Sonra müsəlmanların bir-birinə qarşı davranışlarını yoluna qoyacaq geniş mənalı bir kəlmə dedi: "Ey Allahın qulları, qardaş olun." Qardaşlıq insanlar arasındakı münasibətləri tənzimləyən və onlar arasında sevgi və ünsiyyəti artıran bir bağdır.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee